MODUL TİPLİ YATAQXANA HƏRTƏRƏFLİ ŞƏRAİTƏ MALİKDİR

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər bu gün də uğurla davam etdirilir. Yeni hərbi şəhərciklərin, əsgər kazarmalarının, hərtərəfli şəraitə malik, eyni zamanda zəruri məişət avadanlıqları ilə təmin olunmuş zabit yataqxanalarının tikilib istifadəyə verilməsi bunun əyani sübutudur. Bundan əlavə, hərbi şəhərciklərdə subay müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün modul tipli yataqxanalar inşa edilib ki, bu da hərbi hissənin döyüş hazırlığının daima yüksək səviyyədə qorunub saxlanılmasında vacib amildir.

2011 və 2013-cü illərdə açılışı olmuş modul tipli yataqxanalardan ikisi 25033 saylı hərbi hissədə mövcuddur. Burada şəxsi heyətin xidmətdən sonrakı asudə vaxtının səmərəli təşkili, o cümlədən yaşaması üçün hərtərəfli şərait yaradılmışdır.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri mayor İlham İsmayılovun sözlərinə görə, şəxsi heyətin yaşayış şəraiti hissə komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılır. Şəxsi heyət xidmətdən sonra yataqxanada onlara təhkim olunmuş müvafiq otaqlarda istirahət edir, kitab oxuyur, stolüstü oyunlar oynayır, o cümlədən sabahkı xidmətə hazırlıq işləri görür. Hərbi hissə komandanlığı mütəmadi olaraq onların yaşayış şəraiti, habelə asudə vaxtlarının səmərəli təşkili ilə

maraqlanır və bu istiqamətdə bütün lazımi köməklik göstərir. Həmçinin, yataqxanalarda vaxtaşırı səliqə-sahman yoxlanılır, hər hansı bir təmir işinə ehtiyac duyulduqda dərhal həyata keçirilir.

Xüsusi vasitələrin tətbiqi bölməsinin başçavuşu gizir Bəxtiyar Ələkbərov bu işdə yaxından iştirak edir.

Vacib məsələlərdən biri də müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçularının xidmətdən sonrakı vaxtda qidalanmasıdır. Yataqxanaların 1-ci mərtəbəsində yeməkxana fəaliyyət göstərir. Burada onlar milli mətbəximizin təamlarından dada bilirlər. Yeməklərlə yanaşı, menyu meyvə şirəsi və mövsümə uyğun salatlar da daxildir.

Beləcə, Daxili Qoşunların regionlarda yerləşən istənilən hərbi hissəsinin nümunəvi hərbi qulluqçularındandır.

O, 1988-ci il noyabr ayının 8-də Kürdəmir rayonunun Çöhranlı kəndində anadan olub. Orta təhsilini tamamladıqdan sonra Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbçi ailəsində dünyaya gəlməsi onun bu sahəyə olan marağının günü-gündən artmasına səbəb olub. Hələ uşaq yaşlarından Vətəni sevmək, onun müdafiəsi və qüdrətlənməsi üçün hər zaman

MÜQƏDDƏS MİSSİYANIN ŞƏRƏFLİ DAŞIYICISI

Azərbaycan xalqı hər zaman müqəddəs amal uğrunda çalışan, Vətəninə, dövlətinə ləyaqətlə xidmət edən ən önəmli peşə sahiblərinə hörmətlə yanaşmış, öz qayğısını onlardan əsirgəməmişdir. Hələ uşaq ikən müəllimimin bizə gələcək peşə seçimimiz barədə tövsiyələrini verərkən, həkim, hakim və müəllim peşələrinin heyatda insan taleyinə birbaşa təsir göstərdiyini dediyi və hər üç sənətin oxşar xüsusiyyətləri olmasını bildirməsi bu gün də xatirimdədir.

Daxili Qoşunların Hərbi Qospitalında həkim kollektivinin xəstə hərbi qulluqçularımıza göstərdiyi qayğını gördükdə bir daha onların müqəddəs missiyanın daşıyıcısı olduğunu yəqinləşdirdim. Ona görə də qəzetimizin bu sayında Daxili Qoşunların veteranı, ehtiyatda olan tibb xidməti mayoru, cərrah Azad Azadov haqqında məlumat vermək istəyirəm.

O, 1957-ci il martın 2-də Lerik rayonunun Biləver kəndində doğulub. 1974-cü ildə Lənkəran şəhər 2 nömrəli orta məktəbi bitirdikdən sonra 1975-1978-ci illərdə müddəti həqiqi hərbi xidmətini Sovet ordusu tərkibində keçib. 1979-cu ildə Tibb İnstitutunun "Müalicə işi" fakültəsinə qəbul olunub. Ali təhsil ocağını 1987-ci ildə uğurla başa vuran gənc həkimin təyinatını Rusiya Federasiyasının Nijny Novqorod şəhərində yerləşən 13 nömrəli xəstəxanaya

verirlər. Beş il gürbətdə çalışmasına baxmayaraq, ürəyi daim Vətən həsrətiylə döyünən A.Azadov bir həkim və əsl vətəndaş kimi torpağına olan bağlılığını, Vətənə olan dərin məhəbbətini sübut edərək, 1992-ci ildə - Vətənin dar günündə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciət edir. Təbii ki, həmin dövrdə müharibə vəziyyətində olan ölkəmizin savadlı, təcrübəli cərrahlara böyük ehtiyacı vardı. Mehz bu səbəbdən onun müraciətinə müsbət cavab verilir.

1994-cü ilə qədər Müdafiə Nazirliyinin Ələtdə yerləşən Hərbi Qospitalında Cərrahiyyə şöbəsinin rəisi vəzifəsində xidmət edib. Həmin ildən isə Daxili Qoşunların Hərbi Qospitalında fəaliyyətini davam etdirib. Artıq 22 ildir ki, burada həkim-neyrocərrah vəzifəsində qüsursuz xidmət edir.

Nümunəvi xidmətinə, nizam-intizamına görə daim öndə olan cərrahımız təqaüdə çıxmasına baxmayaraq, bu gün də 12576 saylı hərbi hissənin-Hərbi Qospitalın Cərrahiyyə şöbəsində mülki həkim kimi fəaliyyət göstərir. Həm hissənin komandiri tibb xidməti polkovniki Şəmsəddin Heydərov, həm Cərrahiyyə şöbəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Nəzakət Səmədova Azad həkimi savadlı, təcrübəli kadr kimi dəyərləndirərək, sıralarımızda bu cür həkimlərin çalışmasının qospitalın fəaliyyətinə, ümumilikdə, gənc həkimlərin ixtisaslaşmasına böyük təsiri olduğunu qeyd etdilər.

Azad həkim öz peşəsinin çətinliklərindən bəhs edərkən, hər bir həkimin həm zahirən, həm də daxilən gözəl olmağını vacib faktor kimi dəyərləndirdi: "Düşünürəm ki, həkimlər Allahın yer üzərindəki ağ xalatlı elçiləridir. Mən hər bir xəstəmə yaxınım, doğmam kimi yanaşmışam. Ona görə də onların sağlamlığına qovuşması üçün əlimdən gələni əsirgəməmişəm. Bu gün yüzlərlə insana ikinci nəfəs bəxş etdiyimə, həkim kimi öhdəmə düşən vəzifələri icra etdiyimə və Daxili Qoşunların veteranı olduğuma görə fəxr edirəm".

leytenant N.Ağayeva

YIĞMA KOMANDAMIZ YENƏ DƏ BİRİNCİDİR

Hərbi qulluqçularımız Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən mükafatlandırılıblar.

Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən, iyulun 12-dən 14-dək daxili işlər orqan və hissələri arasında sambo idman növü üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Yarışda Daxili Qoşunların yığma komandası 9 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Şəxsi birinciliklə 16075 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Kamal Məmmədli 62 kq, 67987 saylı hərbi hissənin hərbi qulluqçusu kiçik çavuş Anar Səfərli 68 kq, 99713 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş Əli Bayramov 82 kq çəki dərəcəsində 1-ci yeri tutublar.

99713 saylı hərbi hissənin hərbi qulluqçuları baş çavuş Eldar Məmmədov 68 kq, baş çavuş Vüqar İsmayılov 100 kq və baş leytenant Seymur Rzayev +100 kq çəki dərəcəsində 2-ci yerə layiq görülüblər.

67987 saylı hərbi hissənin hərbi qulluqçusu kiçik çavuş Həmid Səfərəliyev 100 kq çəki dərəcəsində kürsünün sonuncu pilləsində qərarlaşıb.

Ümumilikdə, Daxili Qoşunların yığma komandası komanda birinciliyində I yeri tutub.

Yarışda yüksək nəticələr göstərmiş idmançı hərbi qulluqçularımız Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən mükafatlandırılıblar.

XİDMƏTİNDƏ DÜRÜST VƏ MƏSULİYYƏTLİ OLAN TAQIM KOMANDİRİ

Daxili Qoşunların Ali Hərbi Məktəbində olarkən gələcəyin zabitlərini yetişdirən zabitlərin fəaliyyətinə xüsusi maraq göstərdim. Çünki həmin zabitlərin gördüyü işin nəticəsi kursantların təlim-tərbiyəsində, hərbi qulluqçu kimi formalaşmasında öz əksini tapır. Bu mürəkkəb və çoxşaxəli prosesin uğurlu olması onların öz funksional vəzifələrinə məsuliyyətlə yanaşmasını, daim peşə vərdişlərini, bilik və bacarıqlarını təkmilləşdirməsini, qabaqcıl təcrübəyə yiyələnməsini tələb edir.

Ali Hərbi Məktəbin komandanlığı zabit hazırlayan tədris taborunda tədris taqımının komandiri baş leytenant Firdovsi Abdullayevin fəaliyyətini müsbət qiymətləndirir. Bu zabit hərbi kollektivdə hörmətə malikdir. Onunla söhbət zamanı xidmət bioqrafiyasının ayrı-ayrı məqamlarına toxunduq.

Baş leytenant F.Abdullayev 6 fevral 1991-ci ildə Hacıqabul rayonunun Qızılburun kəndində anadan olub. Orta məktəbi doğma kəndində bitirib. Məktəb illərindən zabit olmağı arzulayıb. Həmişə zabitlər haqqında sənədli və bədii filmlərə maraqla baxdığını, döyüş yolu keçmiş, veteran adı daşıyan zabitlərə rəğbəti olduğunu xüsusi vurğuladı.

O, 2009-2013-cü illərdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları Ali Hərbi Məktəbində təhsil alıb. Qardaş ölkənin bu nüfuzlu hərbi təhsil ocağının məzunu olması onun müasir dünyagörüşlü zabit kimi yetişməsinə öz təsirini göstərib.

2013-cü ilin sentyabr ayından Daxili Qoşunların sıralarında xidmət edir. Həmin ildən bu günədək xidmət etdiyi Ali Hərbi Məktəbdə uğurlu fəaliyyəti ilə komandanlığın ona göstərdiyi etimadı doğrultmağa çalışır. Ali Hərbi Məktəbdə taqım komandiri vəzifəsinin öz xüsusiyyətləri var. Tabeliyindəki şəxsi heyətin kursantlardan ibarət olduğunu nəzərə alsaq, burada gündəlik hərbi xidmət nizamı ilə ali hərbi təhsil prosesinin uzlaşdırılması, hərbçi vərdişlərinin aşılanması və paralel olaraq gələcəyin zabiti üçün gərəkli keyfiyyətlərin bünövrəsinin qoyulması baxımından xüsusi yanaşma tələb olunur. Əslində, taqım komandiri kimi, o, tabeliyindəki kursantların təlim-tərbiyəsinə ilk məsul olan vəzifəli şəxsdir. Beləcə, kursantların da fərdi

cəhətlərinə yaxından bələd olan odur. O, tabeliyindəki kursantlara həm tələbkar, həm də qayğıkeşdir. Onları hərbi təhsildə uğurlu nəticələr əldə etməyə həvəsləndirməyi bacarır. Təsadüfi deyil ki, komandiri olduğu taqımdakı kursantlar arasında Ali Hərbi Məktəbin tədris qabaqcılları da var.

Baş leytenant F.Abdullayev kursantlara keçilən fənlər barədə məlumat verərkən bildirdi ki, tədris prosesində əsas məqamlardan biri məşğələ mövzularının həm nəzəri, həm də praktiki tərəfdən dolğun mənimsənilməsidir. Hansısa fənnin digərindən üstün olduğunu nümayiş etdirmək olmaz. Hər bir fənn, təlimdə bütün elementlər, habelə tərbiyə işinin bütün üsul və formaları vacibdir. O, nəzərə çatdırdı ki, zabit onun fəaliyyəti üçün müəyyən olunmuş bütün kriteriyalara cavab verməlidir, cavab verə bilmirsə, heç bir hədəfinə çata bilməz. Gələcəyin zabiti olacaq kursantlara da bu fikirləri aşılayan baş leytenant F.Abdullayev onların hazırlığında təcrübəli, sanballı hərbi xidmət yolu keçmiş zabitlərin köməyindən istifadə etmək barədə də məsləhətlərinə diqqət yetirir.

Məninlə söhbətində bildirdi ki, Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov zabitlərin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsinin vacibliyini xüsusi vurğulayır. Bu baxımdan zabitlərin ixtisas hazırlığı, funksional vəzifələrindən irəli gələn fəaliyyətinin təkmilləşdirilməsi üçün Ali Hərbi Məktəbdə lazımi şərait yaradılıb. Qeyd olunan amil, həmçinin, xidmət əzmini artırır, hərbi kollektivdə müsbət əhval-ruhiyyə yaradır.

Baş leytenant F.Abdullayev mütaliəni sevən, müntəzəm olaraq mətbuatı oxuyan, hərbi xidmət sahəsində yeniliklərlə maraqlanan zabitdir. O, "Əsgər" qəzetinin Daxili Qoşunların həyatı barədə məlumatlandırma və ümumiyyətlə, tərbiyəedici, maarifləndirici missiyasının əhəmiyyətini qeyd etdi, Hərbi qəzetin təlim-tərbiyə prosesində zabit heyətinə yardımçı olduğunu vurğuladı.

Bu zabitlə tanışlığım, barəsində öyrəndiklərim məndə onun dürüst, vətənpərvər olması, öz cavabdehliyini dərk etməsi, hərbçi ləyaqətini uca tutması təəssüratı yaratdı. Qeyd olunan keyfiyyətlər isə zabitin hərbi xidmət yolunda inamla söykəndiyi mənəvi təməldir.

Yalçın Abbasov

ƏSAS MƏQSƏD BACARIQLI KİÇİK KOMANDİRLƏR YETİŞDİRMƏKDİR

Baş leytenant Anar Nəsibov Daxili Qoşunların 25032 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularındandır.

O, 1988-ci il noyabr ayının 8-də Kürdəmir rayonunun Çöhranlı kəndində anadan olub. Orta təhsilini tamamladıqdan sonra Daxili Qoşunların 25031 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbçi ailəsində dünyaya gəlməsi onun bu sahəyə olan marağının günü-gündən artmasına səbəb olub. Hələ uşaq yaşlarından Vətəni sevmək, onun müdafiəsi və qüdrətlənməsi üçün hər zaman səy göstərmək Anara hərbçi atası tərəfindən aşılanıb. Qeyd edim ki, hərbi qulluqçumuzun qardaşı hazırda Daxili Qoşunların 99713 saylı hərbi hissəsində xidmətini davam etdirir.

2009-2010-cu illərdə gizirlərin hazırlanması kursunu fərqlənmə ilə bitirən hərbi qulluqçumuz 2010-2012-ci illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb. Hərbi Məktəbi də müvəffəqiyyətlə tamamladıqdan sonra 25031 saylı hərbi hissədə taqım komandiri kimi xidmət edib. Hazırda 25032 saylı hərbi hissənin kiçik komandirlər hazırlayan tədris bölüyündə taqım komandiri-müəllim vəzifəsində xidmət edir.

Baş leytenant A.Nəsibov ümumilikdə üç ay davam edən təlim kursunun hərbi hissə komandiri tərəfindən təsdiq edilən həftəlik məşğələ cədvəllərinə əsasən məşğələlər 45 gün nəzəri, 45 gün praktiki olaraq keçirilir: "İctimai-siyasi hazırlıq, Daxili Qoşunların taktikası, atəş və fiziki hazırlıq məşğələlərinə xüsusi önəm verilir. Nəzəri məşğələlər başa çatdıqdan sonra Daxili Qoşunların sıralarına yeni çağırılmış əsgərlərin xidmət etdiyi tədris bölüklərində təcrübə mərhələsi başlayır. Bu zaman kiçik komandir keyfiyyətlərinin formalaşmasına, praktiki fəaliyyətə xüsusi diqqət yetirilir".

Taqım komandiri onu da əlavə etdi ki, bütün məşğələlər başa çatdıqdan sonra hərbi qulluqçulardan imtahanlar qəbul edilir. Yüksək nəticələr əldə edərək, kursu müvəffəqiyyətlə bitirənlərə kiçik çavuş hərbi rütbəsi verilir və onlar xidmətlərini davam etdirmək üçün müvafiq hərbi hissələrə göndərilirlər.

Ümumilikdə, keçirilən məşğələlərin keyfiyyətlə təşkil olunduğunu söyləyən baş leytenant A.Nəsibov bu işdə manqa komandiri çavuş Həsən Kamilzadənin fəaliyyətini xüsusi olaraq vurğuladı. Onun tabeliyində olan hərbi qulluqçulara qarşı tələbkar, eyni zamanda diqqətli və qayğıkeş olduğunu söylədi.

baş leytenant X.Hacızadə

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 15 (506)
31 iyul 2017-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

PREZİDENT İLHAM ƏLİYEV PİRALLAHI QƏSƏBƏSİNİN MƏRKƏZİ HİSSƏSİNDƏ HƏYATA KEÇİRİLƏCƏK LAYİHƏLƏRLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Pirallahı qəsəbəsinin mərkəzi hissəsində görülmüş işlər və həyata keçiriləcək layihələrlə tanış olub.

AZƏRTAC xəbər verir ki, rayon icra hakimiyyətinin başçısı Vasif İmanov Prezident İlham Əliyevə Pirallahı qəsəbəsinin baş planı haqqında ətraflı məlumat verdi.

Bildirildi ki, dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq yeni yaranan rayonda müxtəlif nazirlik, komitə və baş idarələrin yerli qurumlarının təşkili prosesinə start verilib. Buna görə Pirallahı qəsəbəsinin baş planı hazırlanıb. Plana əsasən, Pirallahı qəsəbəsində inzibati mərkəz üçün ayrılan ərazidə rayon icra hakimiyyəti, Heydər Əliyev Mərkəzi və Yeni Azərbaycan Partiyası rayon təşkilatı üçün binaların inşası davam etdirilir. Sərməd Vurğun küçəsində Gənclər Əyləncə Mərkəzi üçün ayrılan sahədə yeraltı və yerüstü kommunikasiya xətləri inşaat sahəsindən kənarlaşdırılıb. Rayonda müxtəlif nazirlik və komitələrin aidiyyəti struktur vahidlərinin yerləşdirilməsinə başlanıb. Artıq Rayon Polis Şöbəsinin müasir binası istifadəyə verilib. Baş plana uyğun olaraq Pirallahı qəsəbəsində sahil xətti boyunca sakinlərin və turistlərin istirahətini təmin etmək məqsədilə yeni dənizkənarı bulvarın və çimərliyin salınması nəzərdə tutulub.

Məlumat verildi ki, Pirallahı qəsəbəsinin müfəssəl planlaşdırma layihəsinin 2033-cü ilədək həyata keçirilməsi nəzərdə tutulur. Beləliklə, qəsəbədə 35 min sakinin məskunlaşması mümkün olacaq. Burada Milli Lider Heydər Əliyevin həm "Neft daşları"na, həm də Pirallahıya səfərlərini əks etdirən fotostend də var. Belə ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə - 1979-cu ildə Pirallahı qəsəbəsinə də gəlib və buradakı bir sıra sənaye müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olub.

Qeyd edildi ki, Pirallahı rayonunda ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyi, insanların sağlamlığının təmin edilməsi, yaşlılıqların artırılması, yeni ağacların əkilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilir. Rayonda ekoloji mühiti yaxşılaşdırmaq məqsədilə baxımsız qalmış sahələr təmizlənir, antisanitar vəziyyət aradan qaldırılır. Mərkəzi yol boyunca müxtəlif landşaft kompozisiyaları düzəldilib, torpaq tökülərək yamaclar, təpələr qurulub, hamarlanma işləri aparılıb, qəza daşları, gül və kol bitkiləri ilə bəzədilib.

Pirallahı rayonunun coğrafi mövqeyi və iqlim şəraiti turizmin inkişafı üçün əlverişlidir. Rayon ərazisinin əsasən adalardan ibarət olması buna daha çox zəmin yaradır. Pirallahı adasının sahil boyu ən əlverişli yerləri ayrılmaq şərti ilə həmin ərazilərdə dənizkənarı bulvar, attraksionları olan istirahət parkı, otel, kafe, kütləvi çimərliklər, idman-konsert kompleksi, yaxt-klub, sörfinq klubu yaradılması üçün əlverişli şərait var. Yenidən qurulan Qala-Pirallahı yolu və Pirallahı körpüsü qəsəbə sakinlərinin, həmçinin turistlərin Heydər Əliyev prospekti ilə Bakının mərkəzinə, eləcə də Heydər Əliyev Beynəlxalq Aeroportuna, Şüvəlan, Mərdəkan, Buzovna, Bilgəh, Bino və digər qəsəbələrə rahat çıxışına imkan yaradır. Turizmin inkişaf perspektivlərinin yüksək qiymətləndirildiyi Pirallahı, Gürgan və Çilovda inşa ediləcək istirahət mərkəzləri və komplekslər, otel və mehmanxanalar, Tarix-Diyarşünaslıq Muzeyi, Gənclər Əyləncə Mərkəzi ilə yanaşı, yeni tikilmiş körpünün altındakı 120 metrlik keçidin açılması ilə su idmanı növlərinin, o cümlədən yelkənli qayıqsürmə və avarçəkmənin inkişafı, yeni müasir çimərliyin, skuter qəzintilərinin, ada ətrafında gəmi kruizlərinin təşkili üçün əlverişli imkanlar yaranıb.

Azərbaycan və Rusiya prezidentləri ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıblar

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşüb.

Dövlət başçıları söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğunu bir daha təsdiqlədilər. İkitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyini vurğuladılar. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi. Beynəlxalq və regional problematika ətrafında fikir mübadiləsi aparıldı. Hər iki dövlət başçısı Rusiya-Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirdilər.

AZƏRTAC xəbər verir ki, iyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatdı.

Azərbaycan Prezidenti İlham Əliyev Latviya Seymində olub

İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Respublikasının Seymində olub.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Latviya Respublikası Seyminin sədri İnara Murnietse Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

İnara Murnietse Seymin bir qrup deputatını Prezident İlham Əliyevə təqdim etdi.

Latviya Seyminin sədri Prezident İlham Əliyevə Seymin fəaliyyəti barədə məlumat verdi və idarə zalı ilə tanış etdi.

Sonra xatirə şəkilləri çəkdirildi.

Dövlətimizin başçısı Latviya Seyminin fəxri qonaqlar kitabını imzaladı.

Daha sonra Prezident İlham Əliyevin Latviya Seyminin sədri İnara Murnietse ilə görüşü oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına rəsmi səfəri iyulun 18-də başa çatıb.

DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı 2017-ci ilin I yarımilinin xidməti-döyüş fəaliyyətini qənaətbəxş hesab edib

İyulun 15-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın "2017-ci ilin I yarımilində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr"ə həsr olunmuş icası keçirilib. İclasda Daxili Qoşunların Baş İdarəsinin idarə, şöbə, xidmət rəisləri, hərbi hissələrin komandirləri və müavinləri iştirak ediblər.

Müşavirədə giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, dünyada baş verən proseslərin fonunda Azərbaycandakı sabitlik mühiti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin böyük uğurla davam etdirdiyi dövlət idarəçilik strategiyasının nəticəsidir ki, ölkəmizdə təhlükəsizlik tədbirləri yüksək səviyyədədir, Azərbaycan bölgədə və dünyada sabitlik məkanı kimi tanınır. İctimai-siyasi sabitliyin təmin edilməsi və ardıcıllıq xarakteri daşıması kimi prioritet vəzifələrin icrasında Daxili İşlər Nazirinin tərkib hissəsi olan Daxili Qoşunların da fəal iştirak etdiyini deyən Daxili Qoşunların Komandanı vurğulayıb ki, 2017-ci ilin I yarısında ölkəmizdə keçirilən bütün beynəlxalq əhəmiyyətli və respublika səviyyəli tədbirlərdə, ayrı-ayrı hallarda isə ictimai təhlükəsizliyin təminində və ictimai qaydaların qorunmasında Daxili Qoşunlar müəyyən edilmiş tapşırıqları layiqincə yerinə yetirib.

General-leytenant Ş.Məmmədov şuranın gündəliyini elan etdikdən sonra 2017-ci ilin I yarımilində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında Daxili Qoşunlar Komandanının 1-ci müavini - Qərargah rəisi general-mayor Şirin Xəlilov məruzə ilə çıxış edib.

O, məruzəsində qoşunların xidməti-döyüş fəaliyyətinə yekun vurararq, qazanılmış nailiyyətlər, ötən ilin müvafiq dövrü ilə müqayisədə irəliləyişlər və geriləmələr barədə məlumat verib, nöqsan və çatışmazlıqların yaranma səbəblərini, onların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri nəzərə çatdırıb.

Sonra Daxili Qoşunların Baş İdarəsində İnspeksiyanın rəisi polkovnik İlham Tağıyev 2017-ci ilin I yarımili ərzində Daxili Qoşunların hərbi hissələrində aparılmış umumi inspeksiya yoxlamaları ilə əlaqədar çıxış edərək, ötən 6 ay ərzində yoxlanılan hərbi hissələrin nəticələrinin yüksək olduğunu bildirib, bir sıra hallarda aşkarlanmış nöqsanların təkrarlandığına diqqəti yönəldib.

Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov çıxış edərək, I yarımildə Daxili Qoşunların şəxsi heyəti ilə tərbiyə işinin təşkilinin və hərbi intizamın vəziyyətinin qənaətbəxş olduğunu qeyd edib.

Bildirilib ki, xidmətin aparılması zamanı cinayət, hadisə, kobud intizam pozuntusuna yol verilməyib, hərbi intizamın təhlilinin nəticələri qənaətbəxş olub.

Xidmətdənkənar baş vermiş bir sıra hadisələrin hərbi qulluqçuların etik davranış və təhlükəsizlik qaydalarına riayət etməmələri səbəbindən baş verdiyini qeyd edərək, bu istiqamətdə hərbi hissə komandanlıqlarının fəaliyyətinin daha da gücləndirilməsinin zərurətini vurğulayıb.

Daha sonra hərbi hissə komandirlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetirib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov ümumilikdə, 2017-ci ilin I yarımilində xidməti-döyüş fəaliyyətini qanaətbəxş hesab edərək, növbəti yarımildə qarşıda duran vəzifələrdə əlaqədar aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib. O, əldə olunmuş nailiyyətləri qoruyub saxlamaq və davam etdirmək üçün işləri baş-lanaraq zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

Həmin cinayətlərin törədilməsində şübhəli bilinən 3 nəfər saxlanılaraq istintaqa cəlb olunub.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı zəruri tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidməti mətbuat xidmətlərinin məlumatı

2017-ci il iyulun 25-26-da Daxili İşlər Nazirliyinin aidiyyəti qurumları əməkdaşlarının və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının İştirakı ilə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Balakən və Zaqatala rayonları ərazisindəki meşə massivlərində kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər həyata keçirilib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına məxsus helikopterlərin də cəlb olunduğu əməliyyatlar nəticəsində meşə zolaqlarında narkotik tərkibli bitkilərin kultivasiya yolu ilə yetişdirilməsinə dair faktlar müəyyən olunub.

Həmin faktlar üzrə ümumi çəkisi 26 ton 685 kiloqram olan 26 min 660 ədəd narkotik tərkibli çətənə kolu, xalis çəkisi 23 kiloqram olan qurudulmuş marixuana əşkar olunaraq götürülüb.

Qeyd olunan faktlara görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri baş-lanaraq zəruri əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

Həmin cinayətlərin törədilməsində şübhəli bilinən 3 nəfər saxlanılaraq istintaqa cəlb olunub.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı zəruri tədbirlər davam etdirilir.

Mətbuat xidməti

BAŞ İDARƏDƏ GÖRÜŞ

İyulun 26-da Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Pakistan İslam Respublikasında Azərbaycan Respublikasında fəaliyyətini başa vuran Hərbi Attaşesi polkovnik Səid İmran Əlini və həmin vəzifəyə yeni təyin olunmuş polkovnik Nadem Yaqub Çodrini qəbul edib.

Qonaqları salamlayan general-leytenant Ş.Məmmədov Pakistan İslam Respublikasının Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu diqqətə çatdıraraq, hər iki ölkə arasında qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərindən söz açıb. Ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın mövcudluğunu müsbət hal kimi qiymətləndirən Daxili Qoşunların Komandanı, bu istiqamətdə mühüm irəliləyiş və perspektivlərin olacağına ümid etdiyini bildirib.

İkitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük təkan verəcəyini vurğulayan polkovnik S.İ.Əli səmimi qəbula görə təşəkkürünü ifadə edib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, Azərbaycan ilə Pakistan arasında hərbi sahədə daima inkişaf edən əlaqələr hər iki tərəf üçün faydalıdır.

Polkovnik N.Y.Çodrinə məsul və şərəfli vəzifəsində uğurlar arzulayan general-leytenant Ş.Məmmədov Pakistan Hərbi Attaşeliyi ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında son illərdə yaranmış qarşılıqlı əməkdaşlıq münasibətlərinin bundan sonra da müvaffəqiyyətlə davam edəcəyinə əminliyini bildirib. Qonaq, öz növbəsində, Daxili Qoşunlar ilə Pakistan İslam Respublikasının müvafiq qurumu arasında qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi üçün lazımi dəstək vəcəcəyini vurğulayıb.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

****

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov iyulun 25-də Daxili Qoşunlar Komandanının xidməti ezamiyyətini başa vurmuş müşaviri polkovnik Kemal Şahintürk və Daxili Qoşunların Ali Hərbi Məktəbi rəisinin müşaviri polkovnik Metin Birlikbaşı qəbul edib.

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasındakı qarşılıqlı xoş münasibətlərdən söz açan general-leytenant Ş.Məmmədov Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb.

Polkovnik K.Şahintürk və M.Birlikbaş isə, öz növbəsində, Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnun olduqlarını ifadə edərək, bu müddət ərzində onlara göstərilən diqqət və qayğıya görə Daxili Qoşunlar Komandanına dərin minnətdarlıqlarını bildiriblər.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

Görüşün sonunda Daxili Qoşunlar Komandanı polkovnik K.Şahintürkü "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə, polkovnik M.Birlikbaşı isə "Faxri fərman"la mükafatlandırıb və xatirə şəkli çəkilib.

leytenant N.Ağayeva

DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ HƏRBİ QULLUQÇULARIN MÜKAFATLANDIRILMA MƏRASİMİ KEÇİRİLİB

General-leytenant Ş.Məmmədov təltif olunan hərbi qulluqçuları təbrik edərək, göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Daxili İşlər Naziri cənab Ramil Usubova minnətdarlığı - nı bildirib. Daxili Qoşunların Komandanı əminliklə bildirib ki, şəxsi heyət bundan sonra da göstərilən etimadı doğruldacaq. Vətənin, dövlət və dövlətçiliyimizin sadiq keşikçisi kimi verilən bütün əmr və göstərişləri tam və keyfiyyətlə

Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun müvafiq əmrinə əsasən, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bir qrup hərbi qulluqçusu "Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" 3-cü, 2-ci, 1-ci dərəcəli medalları və "Azərbaycan Respublikasının Silahlı Qüvvələri veteranı" medalı ilə mükafatlandırılıb.

Bu münasibətlə iyulun 15-də Daxili Qoşunların Baş İdarəsində mükafatların təqdim edilməsi mə - rasimi keçirilib.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov mü - kafatları hərbi qulluqçulara təqdim edib.

qulluq və atsürmə qaydaları öyrədilir. Nəzəri məşğələlərdə isə "Atların xarakterik xüsusiyyətləri", "Atların yerləşdirilməsi və saxlanılması", "Atlara qulluq", "Atların xəstəlikləri və onların profilaktikası", "Yerin təbii şəraitinə uyğun atsürmə" və s. mövzular tədris olunur. Bu da həm atların yetişdi - rilməsində, həm də onların tənkim olunduğu hərbi qulluqçuların bilik və bacarıqlarının, habelə peşə vərdişlərinin təkmilləşdirilməsində

yerinə yetirəcəkdir.

Qeyd edək ki, müvafiq əmrə əsasən, ümumilikdə, 269 nəfər (144 nəfər - "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, 74 nəfər - 2-ci dərəcəli, 29 nəfər - 1-ci dərəcəli, 22 nəfər isə "Azərbaycan Respublikasının Silahlı Qüvvələri və - teranı" medalları) təltif edilib.

baş leytenant X.Hacızadə

XİDMƏTİ ATLARI YETİŞDİRMƏ MƏNTƏQƏSİNDƏ...

Qarşıya qoyulmuş tapşırıqlar uğurla icra edilir

Bu gün ölkəmiz bir çox idman yarışlarına, musiqi festivallarına və mədəni-kütləvi tədbirlərə evsahibliyi etməkdədir. Özünəməxsus şəkildə tədbirləri müvəffəqiyyətlə həyata keçirən Azərbaycan, sözün əsl mənasında, bütün dünyanı təəccüblənməkdədir. Bura həm yüksək təşkilatçılıq qabiliyyəti, idman, musiqi arenalarının möhtəşəmliyi, müasir quruluşu, həm də yaşayış və qeyri-yaşayış obyektlərində təhlükəsizlik tədbir - ləri daxildir.

Belə mötəbər tədbirlər zamanı digər hüquq-mühafizə qurumları ilə yanaşı, DİN Daxili Qoşunlarının şəxsi heyəti də ictimai təhlükəsizliyin və ictimai qaydanın qorunmasında yaxından iştirak edir.

İctimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmətə-döyüş tapşırıqlarının yerinə yetirilməsində qoşunların süvari bölmələrindən geniş istifadə olunur. Xidməti atlar patrul xidmətinin aparılmasına, kütləvi iğtişaşların yatırılmasına cəlb edilirlər. Bundan başqa, silahlı cinayətkarların zərərsizləşdirilməsində, ağır relyef şəraitində, nəqliyyat vasitələrinin istifadəsi çətin olan və ya mümkün olmayan yerlərdə xidməti atların fəaliyyəti ölçüyəgəlməzdir.

Mövzunu xidməti atların yetişdirilməsi, saxlanılması, qidalanması istiqamətində davam etdirmək istərdim. 67987 saylı hərbi hissənin süvari qrupunun təhkim olunduğu xüsusi vasitələrin təbiqi dəstəsinin komandiri polkovnik-leytenant Vüqar Şirinov minik atlarının xüsusi qulluq, eyni zaman - da qayğı tələb etdiyini bildirdi. Tapşırılmış işin öhdəsindən layiqincə gəlmək üçün öncə atların xarakteristikasına, sonra vücud quruluşuna yaxşı bəlli olmaq lazımdır. Həmçinin, heyvanların lazımi səviyyədə yetişdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Bildirdi ki, bu istiqamətdə bölmə komandiri baş leytenant Ziyad Kazımov öz işinin öhdəsindən layiqincə gəlir.

Baş leytenant Z.Kazımovun sözlərinə görə, məntəqədə atlar əsasən üç növə aiddir: ingilis, budyanovski və axaltəki. Günün nizam qaydalarına uyğun olaraq, atlar səhər və axşam bir saat olmaqla gəzdirilir. Gəzdirildikdən sonra atlar qaşovlanır, daranır, dırnaqlara qulluq edilir və suvarılır. Qidalanmaya gəldikdə isə atlar gündə altı dəfə ayrılıqda arpa və otla yemlənir. Bundan başqa, diniklərin təmizlənməsi, eyni

zamanda sağlamlıq durumları da ciddi nəzarətdə saxlanılır.

Xidməti atları yetişdirmə məqsədilə təhkim olunmuş hərbi qulluqçularla birgə atlara həftənin çərşənbə axşamı və cümə axşa - mı praktiki təlimlər keçirilir, şənbə günü isə şəxsi heyət nəzəri məşğələlərə cəlb olunur. Praktiki təlimlərdə atların təhkim olunduğu şəxsi heyətə at ləvazimatlarına

əhəmiyyətli rol oynayır. Görülən işlərdə süvari qrupunun komandiri gizir Asim Əliyevin əməyi də təqdirəlayiqdir.

Bir sözlə, xidməti atları yetişdirmə məntəqəsi üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşır və qarşıya qoyulmuş bütün tapşırıqları uğurla icra edir.

baş leytenant T.Əlizadə

YENİDƏN QURULMUŞ HƏRBİ HİSSƏNİN ÇOXŞAXƏLİ FƏALİYYƏTİ...

Ötən ay Daxili Qoşunların tarixinə əlamətdar günlərdən biri də əlavə olundu. Iyun ayının 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 25032 saylı hərbi hissəsinin açılışında iştirak etdi. Bu tarixi hadisə qoşunların sıralarında xidmət edən hər bir hərbi qulluqçu üçün qürurverici hal idi. Həmçinin ötən ay bu hərbi hissə yaradılmasının 25-ci ildönümünü qeyd etdi.

Yeri gəlmişkən qeyd edim ki, qoşunların regionlarda yerləşən hərbi hissələrinə ilk xidməti ezamiyyətim

məhz bu hərbi hissədən başladı. Yeni dislokasiya yerində fəaliyyətə başlayan hərbi hissənin ərazisinə daxil olan zaman ərazinin genişliyi, burada aparılan abadlıq-quruculuq işləri, səliqə-sahman diqqətimi çəkdi.

Hərbi hissə komandiri polkovnik-leytenant İlkin Gözəlov bildirdi ki, ümumi ərazisi 8,5 hektar olan hərbi hissədə inşaat işləri bu ilin may ayında başa çatıb və ərazidə qərargah, kazarma binaları, yeməkxana, tibb məntəqəsi, müasir hamamcamaşırxana kompleksi, müxtəlif sinif otaqları və digər binalar tikilib. Ateş, rabitə, Daxili Qoşunların taktiki hazırlığı, avtomobillərin idarə edilməsi, yol hərəkətinin təşkili və aş - pazların hazırlanması sinifləri soyu - ducu sistem, lazımi mebel və digər zəruri avadanlıqlarla təchiz edilərək

hərbçilərin istifadəsinə verilib.

Polkovnik-leytenant İ.Gözəlov onu da qeyd etdi ki, hərbi hissə 1992-ci il 12 iyun tarixindən fəaliyyətə başlayıb və zəngin döyüş yolu keçib. Belə ki, torpaqlarımızın azadlığı uğrunda Füzuli və Ağdam rayonlarında gedən döyüş əməliyyatları zamanı hərbi hissənin şəxsi heyatindən 40 nəfər şəhid olub. Vətən naminə canlarından keçərək, şücaət və qəhrəmanlıq nümunələri göstərmiş bu hərbi qulluqçularımızın əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə hərbi hissənin əvvəl yerləşdiyi 12318 saylı hərbi hissənin ərazisində abidə ucaldılıb.

Hərbi hissə komandirinin 1-ci müavini-Qərargah rəisi polkovnik-leytenant Zaur Bağırov isə hərbi hissədə kiçik komandirlər, sürücü və kiçik mütəxəssislər hazırlandığını bildirdi. Söylədi ki, hərbi hissədə həm də komendant və təminat bölükləri mövcuddur: "Komendant bölüyü gündəlik olaraq döyüş xidmətinə cəlb olunur və tam şəkildə hərbi hissənin obyektlərini mühafizə edir. Kiçik mütəxəssislər hazırlayan tədris bölüyündə isə aşpaz, sürücü və ra - bitəçilər hazırlanır".

Polkovnik-leytenant Z.Bağırov əlavə etdi ki, kurslar ildə 4 dəfə ke - çirilir, 3 ay davam edir. Kursun sonunda imtahanlar keçirilir və imta - hanları müvəffəqiyyətlə başa vuran hərbi qulluqçulara müvafiq şəhadətnamələr təqdim olunur.

Kiçik mütəxəssislərdən aşpazlarla ilk iki ayda nəzəri məşğələlər təşkil edilir. Sonuncu üçüncü ayda yeməkxanada yemək xana rəisinin rəhbərliyi ilə onlarla praktiki məşğələlər keçirilir, müxtəlif təamlar hazırlanır.

Sürücülər isə sürücü-təlimatçıların nəzarəti altında məşğələlərə cəlb olunurlar. Hərbi hissə komandiri tərəfindən təsdiq olunmuş müvafiq məşğələ cədvəlinə əsasən, həftədə 6 saat nəzəri məşğələlər, həftənin 5 günü isə praktiki məşğələlər keçirilir. Nəzəri məşğələlərdə avtomobillərin quruluşu, onların istisman, yol hərəkəti qaydaları və s. şəxsi heyətə öyrədilir. Poliqonda keçirilən praktiki məşğələlərdə isə idarəetmənin əsasları və hərəkət təhlükəsizliyinin, avtomobillərin praktiki idarə olunmasının aşılanması əsas götürülür. Məşğələlər başa çatdıqdan sonra Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin 4 saylı Rayonlararası İmtahan, Qeydiyyat və Texniki Baxış Şöbəsi tərəfindən imtahanlar keçirilir və hərbi qulluqçulara sürücülük vəsiqələri təqdim edilir.

Sürücülərin hazırlanmasında öz bilik və bacarğı ilə fərqlənən hərbi hissədə sürücülük üzrə təlimatçı gizir Samir Şirəliyevin rolu böyükdür. Məşğələlər zamanı eyni zamanda mülki müəllim Yasər İmanovun təcrübəsindən də istifadə olunur.

Rabitəçilərlə də gündəlik olaraq həm nəzəri, həm də praktiki olaraq məşğələlər keçirilir. Bu zaman rabitə vasitələrinin növləri, onların istismarı, istifadə qaydaları şəxsi heyətə öyrədilir. Bu məşğələlərin keyfiyyətlə təşkil olunub keçirilməsində rabitə üzrə mütəxəssis hazırlayan tədris təqrmının komandiri-müəllim baş leytenant Rəfail Lətifovun fəaliyyəti təqdirəlayiqdir.

Kiçik komandirlər hazırlayan tədris bölüyünün komandiri-baş müəllim baş leytenant Sənan Bəxşov çavuş heyətinə əsl komandir keyfiyyətlərinin formalaşması üçün əlindən gələni əsirgəmir. Bölüyün 1-ci təqrımı isə hər zaman imtahanları uğurla başa vuraraq birinciliyi qoruyub saxlamağı bacarır.

Göründüyü kimi, hərbi hissədə savadlı və bacarıqlı kiçik komandir və mütəxəssis heyətinin hazırlanması üçün hərtərəfli şərait mövcuddur.

baş leytenant X.Hacızadə

GENERALLARIMIZ...

CAVAD BƏY ŞIXLİNSKİ

Şıxlinski Cavad bəy Məmmədağa oğlu 3 yanvar 1874-cü ildə Qazax qəzasının Qazaxlı kəndində dünyaya gəlmişdir. Rüstəm bəy Şıxlinskinin qardaşı, general-leytenant Əliağa Şıxlinskinin qardaşı oğludur.

Tiflisdəki zadəganlar üçün kadet korpusunda təhsil alıb. Sonra Peterburqda Mixaylov Topçuluq Məktəbində oxuyub. 1912-ci ildə kapitan rütbəsində 39-cu artilleriya briqadasının 1-ci rotasının komandiri olub.

Cavad bəy Azərbaycan Demokratik Respublikası (ADR) dövründə Milli Ordunun təşkilində müstəsna xidmətlər göstərmişdir. O, 1918-ci ildə yenicə yaradılan Milli Ordunun 1-ci diviziyasına komandan təyin edilib. 1919-cu ildə isə onun komandanlığı altında nizami ordu hissələri Zəngəzuru ermənilərdən təmizləyib.

Generalın başçılıq etdiyi 1-ci piyada diviziyası 1919-cu ilin sonlarında Gəncədə yerləşirdi, üç alaydan və üç taboordan ibarət idi.

1920-ci ilin mayında Cavad bəy istilaçı XI Qızıl Ordueya və Sovet hakimiyyətinə qarşı Gəncədə qalxan üsyana başçılıq etmişdir. O, hərbi dəniz komissarı Çingiz İldırım və Azərbaycan bolşevik ordusunun müvəqqəti qərargah rəisi general Əbdülhəmid Qaytabaşının hərbi əməliyyatlar zamanı XI Qızıl Ordunun komandanlığına tabe olmaq haqqında əmrlərini yerinə yetirməkdən boyun qaçırmış və Gəncə üsyanını davam etdirmişdir. Üsyan yatırıldıqdan sonra Cavad bəy Tiflisdən keçməklə İrana mühacirət etmiş, 1931-ci ildə İrandə Ərdəbil qarnizonunun komandanı olmuşdur.

Sonralar Türkiyəyə köç edərək, ömrünün sonlarınadək orada yaşamış və 1959-cu ildə 84 yaşında Türkiyədə dünyasını dəyişmişdir.

Qeyd edək ki, general Cavad bəy Şıxlinski Birinci Dünya Müharibəsində iştirak edib, tatar polkunun tərkibində vuruşub. Müharibədə göstərdiyi şücaətə görə "Müqəddəs Georgi" və "Müqəddəs Vladimir" ordenləri ilə təltif edilib.

ŞƏHİDLƏR

KOMANDİR DƏYANƏTİ

Müharibədə şəxsi heyəti döyüşə ruhlandıra bilmək, ölümlü-itimli anlarda komandir kimi nüfuzunu qorumaq hər zabitin işi deyil. Bunun üçün o zabitin özü cəsurluq nümunəsi göstərməli, tabeliyindəki əsgərlərin inamını və hörmətini qazanmalıdır. Ön cəbhədə tanıdığım leytenant Ramiz Məcidov məhz belə zabitlərdən biri idi.

O, 12 yanvar 1959-cu ildə Bakı şəhərində anadan olmuşdu. 1976-cı ildə paytaxtın Əzizbəyov (hazırda Xəzər - Y.A.) rayonundakı 149 saylı orta məktəbi bitirdikdən sonra "Bakielektroavtomat" zavodunda işləyib. 1977-1979-cu illərdə SSRİ Silahlı Qüvvələrinin sıralarında hərbi xidmət keçib. Əsgəri xidməti zamanı ona pulemyotçu, bağ atıcı vəzifələri həvalə olunub. Hərbi xidmətdən qayıtdıqdan sonra "Bakielektroavtomat" zavodunda əmək fəaliyyətini davam etdirib. O, istehsalatdan ayrılmadan Bakı Neft Texnikumunda təhsil almışdı. 1982-ci ildə texnikumu bitirərək, texnikxonoloq ixtisasına yiyələnmişdi. Bir müddət Rusiyanın Saratov şəhərində "Nitron" müəssisəsində çalışmışdı. Sonra isə Bakı Əlvan Metalların Emalı Zavodunda fəaliyyət göstərib. Onu yaxından tanıyanlar zəhmətkeş, ədalətli, haqsızlıqla barışmayan, heç vaxt çətinliklər qarşısında büdrəməyən insan kimi xatırlayırlar.

Vətənimizə ermənilərin hərbi təcavüzü başlayanda vətənpərvər ruhlu bir vətəndaş kimi o da bu vəziyyətə biganə qala bilməzdi. Beləcə, 1992-ci il sentyabr ayından öz arzusu ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına qəbul olunur. Daxili Qoşunların tərkibində hərbi xidmətə başlayanadək o, ehtiyatda olan kiçik leytenant idi. Daxili Qoşunları ayrıayrı hərbi hissələrində müxtəlif məsul vəzifələrə təyin olunub. Belə ki, ona tapşırım komandiri, bölük komandirinin şəxsi heyət üzrə köməkçisi, bölük komandirinin texniki hissə üzrə müavini, bölük komandirinin köməkçisi, bölük komandirinin şəxsi heyət üzrə müavini vəzifələri kimi qətiyyət göstərib. Onun 1993-1994-cü illərdə Ağdərənin Ortakənd, Çıldıran, Heyvalı (Drımbon), Yayıcı (Kaçaqot), Mehmanə, Canyataq, Gülyataq yaşayış məntəqələrindən, Ağdamın Qalaycılar, Papravənd, Boyəhmədli, Salahlı kəndləri və bəzi yüksəkliklərindən, Füzulinin Böyük Bəhmənli, Yağlıvənd, Babı, Arayatlı, Mollaməhərrəmli, Əhmədalılar kəndləri və Horadiz qəsəbəsindən (hazırda şəhər - Y.A.) keçən döyüş yolunda ağır sınaqlar az olmayıb. Döyüş yolunun müəyyən məqamlarının şahidi kimi, deyə bilərəm ki, silahdaşlarının itkisi onu çox sarsıdırdı. Belə anlarda təkliyə çəkilib çoxlu siqaret çəkirdi. "Müharibə itkisiz olmur, ancaq elə oğulları itiririk ki, buna dözmək çətindir"- deyirdi. Haqlı idi. Döyüşdə komandir nə qədər soyuqqanlı olsa da, cəngavər təbiətli, qorxmaz oğulların düşmən mərmisi və gülləsinə tuş gəlməsi, neçə-neçə gəncin müharibədə yarımçıq qırılan ömrü ürək ağrıdan gerçəklik idi.

Leytenant R.Məcidov döyüşçülərə düşmənə qarşı amansız olmaq fikrini aşılayırdı. Ön mövqelərdə ən şiddətli atəş altında belə, öz polad iradəsi ilə döyüşçülərə mənəvi güc verirdi. Qorxu hissi elə bil ki, ona yad idi. Döyüş təcrübəsi onun mürəkkəb şəraitdə qərarlı və çevik davranmasına kömək edirdi. Şəxsi heyət arasında pərakəndəliyin qarşısının alınmasına, sonadək vuruşmaq əzminin qorunub saxlanmasına nail olurdu.

1994-cü ilin yanvarında Füzuli rayonu ərazisində Daxili Qoşunların hərbi hissələrinin də iştirak etdiyi uğurlu Horadiz əməliyyatında leytenant R.Məcidov tabeliyindəki şəxsi heyətlə düşmənə sarsıdıcı zərbələr vurub. Beləliklə, qarşıya qoyulmuş döyüş tapşırıqlarının yerinə yetirilməsi nəticəsində həmin istiqamətdə neçə-neçə kənd və Horadiz tansiyası düşmən tapdağından azad olunub.

1994-cü il yanvar ayının 23-də erməni işğalçıları Horadiz yaxınlığındakı Əhmədalılar kəndinə əks hücuma keçdilər. Düşmənin bu hücumu bizim müdafiə xəttini yarmaq və işğaldan azad olunmuş ərazilərə yenidən yiyələnmək məqsədi daşıyırdı. Həmin istiqamətdə müdafiə xəttinin yarılması Horadiz və ətrafındakı böyük bir ərazinin təkrar işğalına gətirib çıxara bilərdi. Əhmədalılar yaxınlığındakı mövqelərdə qızğın döyüş getdi. Daxili Qoşunların hərbi qulluqçuları cəsurluq nümunəsi göstərərək, həmin döyüşdə geri çəkilmədilər. Düşmən canlı qüvvə sarıdan xeyli itki verərək, geri çəkilməyə məcbur oldu. Bu döyüşdə düşmən tankından atılan mərmilərin partlaması nəticəsində ağır yaralanan hərbi qulluqçularımızdan biri də leytenant Ramiz Məcidov idi. O, bu son döyüşdə də dəyanətlə vuruşdu və canından artıq sevdiyi Vətən torpağının toxunulmazlığı naminə şəhidlik zirvəsinə ucaldı.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2005-ci il tarixli sərəncamı ilə leytenant Məcidov Ramiz Nəcid oğlu ölümündən sonra "Hərbi xidmətlərə görə" medalına layiq görülüb.

Şəhid zabitin valideynləri - atası Nəcid Məcidov və anası Nadejda Məcidova vəfat ediblər. Onun iki övlad yadigarı qalıb - oğlu Rauf və qızı Tərənə. Tərənənin Əli adında oğlu var. Rauf isə hələ ailə qurmayıb. Rauf hərbi xidmətdə olub, ali təhsil alıb, hazırda hava limanında işləyir. Şəhidin ailə üzvləri - həyat yoldaşı Kamələ Məcidova, Rauf və Tərənə qeyrətli zabitimizin uca şəhidlik məqamı ilə qürur duyurlar. Dövlətimiz tərəfindən şəhid ailəsinə qayğı göstərilərək minnətdar verilib.

Leytenant Ramiz Məcidov Binə qəsəbəsində dəfn olunub. Qəsəbədə adına küçə də var.

Allah rəhmət eləsin!

Yalçın Abbasov

P.S. *Məqalə üçün xidməti və bioqrafik məlumatların toplanmasında göstərdikləri kömeyə görə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xəzər Rayon İdarəsinin rəisi polkovnik-leytenant Kənan Məmmədova və idarənin əməkdaşı Ofelya Mirzəyevaya dərin minnətdarlığımı bildiririəm.*

SİNƏSİ DAĞLI YURDLARIMIZ YOLUMUZU GÖZLƏYİR

AĞDAMIN İŞĞALINDAN 24 İL ÖTDÜ...

Artıq 24 ildən çoxdur ki, Ağdam nisgili ilə yaşayırıq. Vətənimizin dilbər guşələrindən biri olan, zəngin tarixi irsə malik, müqəddəs torpağımız uğrunda çoxlu sayda şahid vermiş Ağdam rayonunun böyük bir hissəsi bu gün işğal altındadır. Hər il iyulun 23-də Ağdamın işğalı tarixi bir daha xatırlanır. 1993-cü ilin od-alovlu günlərini əks etdirən videokadrlara baxdıqca, bu faciənin doğurduğu ağrı-acılar yaddaşımızda təzələnir və bizi düşmənden qisas almağa çağırır.

Dağlıq Qarabağ və ətraf yeddi rayonumuzun, o cümlədən Ağdamın işğal tarixi ilə bağlı indiyə kimi kifayət qədər tədqiqatlar, araşdırmalar apa - rılıb, bu mövzuda sənədli filmlər çəkilib, müxtəlif kitablar işıq üzü görüb. Ancaq bununla yanaşı, heç də bütün faktların üzə çıxarıldığını söyləyə bilmərik. Ona görə də bu proses davam edərək öz məntiqi sonluğuna yetməlidir. Xüsusən də erməni tərəfinin tarixi faktları saxtalaşdırmaq yönündə ara - sıkəsilməz cəhdlərini nəzərə alsaq, informasiya müharibəsində onlara tutarlı cavab vermək, üzləşdiyimiz işğal gerçəkliyinin bütün məqamlarını ortaya çıxarmaqla, təcavüzkarı daim ifşa etməliyik.

Ağdam əlverişli hərbi-coğrafi mövqeyə malik bir rayondur. 1993-cü ilin iyun-iyul döyüşlərində düşmən rayonun xeyli hissəsini ələ keçirməklə, işğalçılıq planlarını reallaşdırmaq üçün ilk növbədə belə mühüm eraziyə yiyələnmiş oldu. Eləcə də böyük maddi dəyəri olan infrastruktur düşmən tərəfindən talandı. Rəsmi məlumatlara görə, ermənilərin hücumları dövründə Ağdam rayonunda 5897 azərbaycanlı həlak olub. Bu, Ermənistan-Azərbaycan müharibəsi dövründə ən böyük insan tələfatıdır

Əslində, o dövrdə ölkədaxili gərgin ictimai-siyasi vəziyyət, hakimiyyət böhranı, məlum Gəncə hadisələrindən başlayan daxili qarşıdurmaların cəmiyyətdə yaratdığı parçalanma orduya da sirayət etmişdi. Ön cəbhədə cəmləmiş hərbi qüvvələrə vahid komandanlığın təşkilində ciddi boşluqlar özünü göstərirdi. Belə neqativ vəziyyət ön cəbhədə bizim durumumuzu daha da ağırlaşdırmışdı. Düşmən yaranmış fürsətdən istifadə edərək hərbi təcavüzünü daha da şiddətləndirmişdi. Digər işğal olunmuş rayonlarımız kimi, Ağdam da bu xaotik proseslərin qurbanı oldu.

Ağdam rayonu uğrunda döyüşlərdə Daxili Qoşunların da şəxsi heyəti iştirak edib. Ümumiyyətlə, Daxili Qoşunların döyüş salnaməsində Ağdamın xüsusi yeri var. Belə ki, Daxili Qoşunlar məhz burada ilk dəfə olaraq, ermənı işğalçılarına qarşı döyüşə başlayıb. İlk şəhidlərimizin son döyüşü də Ağdam ərazisində olub. Burada ön cəbhəyə göndərilərək, dislokasiya yeri kimi yerləşdirilmiş hərbi hissə - miz formalaşdırılıb və döyüşlər getdiyi dövrdə Ağdam alayı kimi tanınıb. Ağdam rayonu ərazisində o vaxt Daxili Qoşunların ön cəbhə qərargahı da yerləşib.

1992-1993-cü illərdə Ağdam cəbhəsi müharibənin ən qaynar istiqamətlərindən biri idi. Döyüşlər dağlıq, dağətəyi, düzənlik ərazilərdə, habelə yaşayış məntəqələri ən olanların ətrafında gedirdi. Hücum və müdafiə xarakterli döyüşlər bir-birini əvəzləyirdi. Daxili Qoşunların şəxsi heyəti cəbhənin bu istiqamətində bir sıra ağır döyüşlərdən keçib. Belə ki, Ferrux yüksəkliyi, Əsgəran istiqamətindəki yaşayış məntəqələri, Ağdamın Xaçınçay ətrafındakı əraziləri, habelə Qaləyçılar, Papravənd, Boyəhmədli və digər kəndləri uğrunda döyüşlərdə yüzlərlə hərbi qulluqçumuz şəhid olub və yaralanıb. Bir çox hallarda hərbçilərimiz qeyri-bərabər qüvvələr nisbətində döyüş sı - naqlarına atılıb. Hətta elə döyüşlər olub ki, döyüşçülərimiz zirehli texnika və artilleriya dəstəyi olmadan düşmənlə üz-üzə gəliblər və işğalçıların tutarlı zərbələr endiriblər. Ağdamı müdafiə etmək üçün Daxili Qoşunların hərbi qulluqçuları həmin xaotik şəraitdə güclərı çatanı ediblər. Daxili Qoşunların şəxsi heyətinin Ağdamda keçdiyi döyüş yolu Vətən naminə fədakarlıq nümunəsidir. Bu döyüş təcrübəsini dərindən öyrənmək, təhlil etmək və ondan faydalanmaq məqsədəuyğundur.

Ağdam şəhərinin xarabalığa çevrildiyini göstərən fotokadrları görməyən olmaz, dəhşətli mənzərədir. Bu şəkillər erməni vandalizmi və yırtıcı xislətinin əyani sübutudur. Uzun müddət onlara dəyanətlə müqavimət göstərmiş Ağdamı ölü şəhərə çevirməklə ermənilər bizim izimizi belə torpaq üzərindən silmək məqsədini güdüblər. Bu, barbarlara xas "yandırılmış torpaq" taktikasının müharibədə həyata keçirilməsidir. Ermənilər nə sivil qaydaları, nə də müharibə qanunlarını tanıyır. Belə düşmənlə sülh anlaşması bağlamaq, dinc qonşuluq etmək çətindir. Bunu dünyada bizim kimi başa düşən və bu faktı təkzibolunmaz dərəcədə qəbul edən ölkələr azdır. Beynəlxalq birlik Azərbaycan torpaqlarının işğalını etiraf edir, ancaq işğalçını mühakimə etmək istəmir. Ümumiyyətlə, geosiyasi maraqlar burulğanına düşən münaqişələrin çözümü uzun illər keçsə də tapılmır. Təəssüf ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də bu qəbildəndir. Ancaq öz torpağına dərin köklərlə bağlı olan bir xalqın mübarizə əzmini qırmaq, özünə inamını sön - dürmək, onu itirdikləri ilə barışmağa məcbur etmək mümkün deyil. Xalqımız da məhz bu qeyd etdiyim vacib keyfiyyətini qorumaqla, döyüş ruhunu yaşatmaqla, qeyrətli oğullarına güvənməklə heç vaxt yenilməyəcəyini bütün dünya - ya göstərir. Azərbaycan bu gün ötən əsrin 90-cı illərinin əvvəllərindəki zəif ölkə deyil. O vaxtdan bu günə böyük inkişaf yolu qət edilib. Respublikamızın güclü dövlətçiliyi və ordusu, möhkəm iqtisadi potensialı, uzaq-görən diplomatiyası artıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinda çox önəmli faktora çevrilib.

2016-cı ilin aprel döyüşləri ölkəmizin öz ərazi bütövlüyünü bərpa etmək üçün yetərincə hərbi gücə malik olduğunu göstərdi. Düşmənin öz müdafiə xətti bərədə yaratdığı mif bununla alt-üst edildi. Təmas xəttində strateji yüksəkliklərə yiyələnən ordumuz gələcək uğurlu döyüşlər üçün taktiki-psixoloji zəmin yaratdı.

Bu günlərdə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə əhalinin qayıdışı da yolumuzu gözləyən yurdlarımıza böyük qayıdışın başlanğıcıdır.

Yalçın Abbasov

QÜVVƏTLİ ORDUM VAR !

Əsgərlərim heç zaman
Düşmənə verməz aman.
Bərəkətli yurdum var,
Qüvvətli bir Ordum var!

Anaların ismətı,
Vətənimin şöhrəti,
Şəhidlərin qeyrəti,
Belə istək harda var?
Bərəkətli yurdum var,
Qüvvətli bir Ordum var!

Ömür sənsiz çətindir,
Yurda məhəbbətimdir,
Dosta sədaqətimdir.
*